N46 (1145) 19-25 noyabr 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İLHAM ƏLİYEV: "BİZİM ZƏFƏRİMİZ HAQQIN, ƏDALƏTİN BƏRPASIDIR"




*Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev noyabrın 16-da işğaldan azad edilmiş Cəbrayıl rayonuna olarkən deyib.*

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış olublar.

**Prezident İlham Əliyev deyib:**

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

**Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.**

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. **Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub.** Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir – evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

**Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil.**

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. **Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

* * *

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinədə də olublar.

Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb.

**Prezident İlham Əliyev deyib:**

- Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. **Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir.** Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik – münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. **Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.**

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanafob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar



bizim torpaqlarımızı dağıdıblar. **Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta “qəhrəman” ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik.** Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər.

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. **Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

* * *

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəliblər.

**Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıb.**




**Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşüblər.**

**Prezident İlham Əliyev:** Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. **Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

# Vladimir Putin: Azərbaycan bütün dünya birliyinin ona məxsus hesab etdiyi əraziləri özünə qaytarıb



**“Ən başlıcası, qan tökülməsinə son qoymaq mümkün olub”.**

Rusiya Prezidenti Vladimir Putin bu fikri “Rossiya 24” telekanalına müsahibəsində söyləyib.

Prezident xatırladıb ki, Azərbaycan ilə Ermənistan arasında danışıqlar əvvəlcə 5 rayonun, sonra isə 2 rayonun Azərbaycana qaytarılması, Azərbaycanın Laçın rayonu ərazisində dəhliz yaradılması, köçkünlərin öz yerlərinə qaytarılması və Dağlıq Qarabağın statusunun tanınması prinsipi barədə olub. Vladimir Putin deyib: **“Əgər biz bu razılaşmaya nail ola bilsəydik, müharibə olmazdı. Mən indi də buna tam əminəm”.**

Türkiyənin Azərbaycanı birtərəfli qaydada dəstəkləməsi ilə bağlı suala cavabında Rusiya lideri deyib: **“Azərbaycan müstəqil, suveren dövlətdir və Azərbaycan özünün lazım hesab etdiyi müttəfiqləri seçmək hüququna malikdir. Bu məsələdə kim ona mane ola bilər?”**

V.Putin xatırladıb ki, indiyə qədər heç bir ölkə, hətta Ermənistan da Qarabağın müstəqilliyini tanımayıb. Beynəlxalq hüquq baxımından Azərbaycan bütün dünya birliyinin Azərbaycana məxsus hesab etdiyi əraziləri özünə qaytarıb. “Bununla əlaqədar Azərbaycan ona kömək göstərən hər hansı müttəfiqi seçmək hüququna malikdir”, - deyə Prezident bildirib. O qeyd edib ki, Türkiyə lap əvvəldən Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT-in Minsk qrupunun üzvüdür, Türkiyəni “beynəlxalq hüququ pozmaqda” ittiham etmək çətindir. RF Prezidentinin sözlərinə görə, əsrlər boyu Rusiya-Türkiyə münasibətlərinin dramatik tarixini Rusiyada xatırlayırlar. Prezident belə bir fakta diqqəti cəlb edib ki, Avropa xalqlarının çoxunun bir-biri ilə münasibətlərinin tarixi bundan heç də az gərgin və faciəli olmayıb. O, nümunə kimi Fransa ilə Almaniyanı göstərib. Bu ölkələr öz aralarında dəfələrlə vuruşublar, indi isə NATO çərçivəsində müdafiə və təhlükəsizlik funksiyalarını birlikdə həyata keçirir, Avropa İttifaqı çərçivəsində əməkdaşlıq edirlər: **“Onlar bütün bu çətinliklərin üstündən keçiblər və öz xalqlarının gələcəyi naminə hərəkət edirlər. Bəs biz Qara dəniz regionunda nə üçün eyni cür hərəkət edə bilmərik?”**

Prezident **“Belə bir təhlükə yoxdurmu ki, Ermənistanda hakimiyyətə gələcək insanlar imzalanmış bəyanatı yerinə yetirməkdən imtina edərlər?”, - sualına cavab olaraq deyib ki, bu, intihara bərabər böyük səhv olardı, “ümidvaram ki belə olmayacaq”.**

Ermənistanda yeni rəhbərliyin hakimiyyətə gəlməsinə Rusiyanın münasibəti məsələsinə toxunan V.Putin deyib: **“Mən belə hesab etmişəm və yenə belə hesab edirəm ki, yetərincə mürəkkəb vəziyyətdə, döyüş əməliyyatları həddində olan ölkə daxili siyasi həyatı və hakimiyyəti küçənin köməyi ilə təşkil etməyi özünə rəva görə bilməz, bunun axırı heç yaxşı olmaz”**.

**Qarabağ münaqişəsi ədalətlə həll olunub**

Bu barədə Rusiya Prezidenti Vladimir Putin BRİKS sammitində bəyan edib.

**RF lideri deyib**: “Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsi sentyabr ayında gərgin fazaya keçib. Rusiya tərəfi bizə dost olan iki dövlət arasında döyüş əməliyyatlarını dayandırmaq və onları münaqişənin kompromisli həllini tapmağa sövq etmək üçün çox fəal səy göstərib. Bizim vasitəçiliyimiz nəticəsində noyabrın 10-da atəşin tam dayandırılması və Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə razılaşma əldə olunub. Bütün bunlar Rusiya və Azərbaycan prezidentlərinin, habelə Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli bəyanatda təsbit olunub”.

Tərəflər arasında razılaşmaya riayət olunduğunu qeyd edən Rusiya Prezidenti Vladimir Putin daha sonra deyib: **“Döyüş əməliyyatları tamamilə dayandırılıb, vəziyyət sabitləşir. Beləliklə, böhranın uzunmüddətli və tamformatlı nizamlanması üçün ədalətli əsasda, həm Azərbaycan, həm də erməni xalqlarının maraqlarına uyğun şərait yaradılıb”**

# Ermənistanın Azərbaycana vurduğu zərərin məbləği 1.3 trilyon dollara yaxın ola bilər

***“Bir neçə il əvvəlki hesablamalarda işğal faktoru ilə əlaqədar Ermənistanın Azərbaycana vurduğu ümumi zərərin məbləğinin 820 milyard dollar olduğu göstərilirdisə, yeni tətbiq ediləcək hesablama metodologiyasının nəticəsi olaraq bu zərərin 1,2-1.3 trilyon dollara yaxın bir məbləğ olacağını düşünürəm”.***

Bunu Trend-ə iqtisadçı ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, infrastruktura dəymiş zərər bu məbləğin müəyyən bir hissəsini təşkil edir. Buraya 900 yaşayış məntəqəsində 6000-dən çox sənaye və kənd təsərrüfatı müəssisəsinin binasının və 695 tibb müəssisəsinin, 693 məktəbin, 7000 müxtəlif təyinatlı ictimai binanın, 927 kitabxananın, 855 uşaq baxçasının yerləşdiyi bina və tikililərin, 2300 km-lik su komunikasiya xətlərinin, 15 000 km elektrik xətlərinin, 2670 km avtomobil yollarının və s. infrastrukturun dağıdılması aiddir.

E.Əmirov qeyd edib ki, dağıdılmış ərazilərimiz arasında ən çox zərər görən Füzuli rayonunun işğal altındakı olan 51 kəndi və rayon mərkəzi olub. Hazırda bu ərazilərə dəymiş zərərin hesablanması üçün ərazidə qiymətləndirmə işləri aparılır. Yekun məbləğ bu qiymətləndirmə işlərinin tamamlanmasından sonra açıqlanacaq.

İqtisadçının fikrincə ki, mövcud statistik məlumatlardan və ilkin hesablama metodlarından istifadə edərək demək olar ki, hər bir rayonun infrastrukturuna təxminən 6-8 milyard dollar məbləğində zərər vurulub.

Bu zərərin qarşılanması üçün isə 6-8 milyard deyil, bundan daha çox vəsait sərf olunacaq. Çünki dağıdılmış infrastrukturun bərpası səmərəli hesab edilə bilməz:



*”Mütləq şəkildə hər şey yenidən qurulmalıdır. Buna görə də bu işlərin görülməsi üçün təxminən 50 milyarda qədər vəsait, 7 ildən 10 ilə qədər zaman lazım olacaq. Lakin burada bir amil mütləq diqqət mərkəzində saxlanılmalıdır. Bütün istiqamətlərdə olan infrastruktur layihələrinin konsepsiyası hazırlanarkən uzunmüddətli perspektiv üçün - 50 illik strateji yanaşma olmalıdır. Təkcə layihələrin icrası zamanı yeni texnolji yanaşmanın tətbiqi kifayət deyil. Bu gün yaradılacaq yeni infrastruktur 20-25 il sonra həyata keçiriləcək digər layihələr üçün də işlək qalmağı bacarmalıdır”.*

Ermənistanın işğalı nəticəsində Azərbaycanın rayonlarına dəymiş ziyanın hesablanması ilə bağlı artıq işçı qrupunun yaradıldığını xatırladan mütəxəssis qeyd edib ki, ümumilikdə bu ziyan özündə maddi, iqtisadi, ekoloji, sosial, psixoloji zərərləri və qaçırılmış imkanlar səbəbindən olan itkiləri cəmlədiyi üçün çox böyük bir araşdırmanın olmasını tələb edir. Dəymiş zərərin mümkün qədər dəqiq qiymətləndirilməsi üçün xüsusi metodologiya və riyazi modellərin tətbiqi mütləqdir. Həmçinin beynəlxalq təcrübənin nəzərə alınması da olduqca vacibdir.

# İtaliyanın nüfuzlu "Rai 1" telekanalında Qarabağla bağlı erməni iddialarına tutarlı cavab verilib

İtaliyanın nüfuzlu **"Rai 1" televiziya kanalının xəbərlər proqramının "EstOvest" rubrikasında erməni mənşəli italyan yazıçı Antonia Arslanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini dini zəmində təqdim etməsi və son hərbi əməliyyatları ermənilərə qarşı "soyqırımı"** adlandırması kimi iddialarına cavab olaraq Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin həmin proqramda açıqlaması yer alıb.

Azərbaycan diplomatı Qarabağ münaqişəsinin dini zəmində deyil, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından irəli gələn ərazi münaqişəsi olduğunu bildirib. **"Ermənistan 30 ildir ki, Azərbaycan ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal edib, oradakı bütün azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirib. Bu gün Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün var"**, - deyə səfir vurğulayıb.

Ermənistanın Qərb ölkələrində ictimaiyyəti öz xeyrinə yönəltmək məqsədilə bilərəkdən bu münaqişəyə dini don geyindirdiyini deyən diplomat Azərbaycanın multikultural ölkə olduğunu, ölkəmizdə erməni mənşəli minlərlə şəxsin yaşadığını, paytaxt Bakının mərkəzində erməni kilsəsinin yerləşdiyini deyib. **"Bizim problemimiz Dağlıq Qarabağın erməni icması deyil, bizim problemimiz Ermənistanın işğalçı ordusu ilədir"**, - deyə diplomat qeyd edib.




# Dövlət Bahçeli: Azərbaycan öz Ordusunun üstünlüyü sayəsində beynəlxalq aləmdə rəğbət qazanıb




**"Sona qədər Azərbaycanın yanında olacağımızı bir daha açıq şəkildə söyləmək istəyirəm. Diləyimiz Qarabağın işğalçılardan tamamilə təmizlənməsi, təcavüzkar Ermənistanın Vətən torpağımızın hər qarışından çıxmasıdır".**

Bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçeli qurumun Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Noyabrın 10-da imzalanan atəşkəs bəyanatı, sonrakı proseslərlə bağlı fikir və mülahizələrini bölüşən MHP sədri Dövlət Bahçeli deyib: "Azərbaycan uğurlu əks-hücum əməliyyatları nəticəsində siyasi müstəvidə üstünlük uğur qazandı, qlobal və regional prosesləri müdrikcəsinə dəyərləndirdi, Ordusunun taktiki üstünlüyü sayəsində beynəlxalq aləmdə rəğbət qazandı. Bu mübarizədə əl-ələ verən Türkiyə və Azərbaycan iki dövlət, tək ürək olaraq zülmü devirdilər".

# "Gomhuriyya" qəzeti: Qarabağda infrastrukturu məhv edən Ermənistan məsuliyyətə cəlb ediləcək




Misirin "Gomhuriyya" qəzetinin saytı "Azərbaycan Prezidenti Qarabağda infrastrukturu məhv edən Ermənistanın məsuliyyətə cəlb ediləcəyini bildirib" sərlövhəli xəbər yayıb.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə infrastrukturu məhv edən Ermənistanın beynəlxalq məhkəmə instansiyaları vasitəsilə məsuliyyətə cəlb olunacağı barədə fikirləri yer alıb. Qeyd olunub ki, Cəbrayıl şəhərini ziyarət edən dövlət başçısı burada mülki binaların hamısının dağıdıldığını deyib.

Xəbərdə vurğulanıb ki, Prezident İlham Əliyev Ermənistanın 30 il ərzində mülki obyektlərə vurduğu bütün ziyanın beynəlxalq institutlar və ekspertlərin iştirakı ilə müəyyənləşdiriləcəyi və təzminat ödənilməsi üçün məhkəməyə müraciət ediləcəyini bildirib.

# "Arutz Sheva": Azərbaycanlılar onlar üçün müqəddəs sayılan Şuşaya qayıtmalı idilər və qayıtdılar

Dağlıq Qarabağda atəşkəs haqqında 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanmış Bəyanat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyub.

Bu il oktyabr ayında Azərbaycanın ikinci böyük şəhəri Gəncə Ermənistan tərəfindən "SCUD" ballistik raketləri ilə atəşə tutulub. Nəticədə Azərbaycanın azı 13 nəfər mülki vətəndaşı, o cümlədən 2 uşaq öldürülüb, 40-dan çox adam yaralanıb. Beləliklə, Gəncə Azərbaycanın Sderotuna çevrilib, çünki Ermənistan silahlı qüvvələri Gəncənin dinc sakinlərini və şəhərdəki digər qeyri-hərbi hədəfləri daim atəşə tutub.

Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin icrası direktoru Arye Qut bu barədə İsrailin populyar "Arutz Sheva" xəbər portalında dərc edilmiş "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ amanabənd sülh davamlı olacaqmı?" sərlövhəli məqaləsində yazır.

Məqalə müəllifi qeyd edir ki, ermənilərin raket hücumları nəticəsində binalar tamamilə dağıdılıb. Arye Qut vurğulayır: "Uşaqlar yetim qalıb, yaralıların çoxu ömürlük şikəst olub. Üstəlik, Sderot kimi Gəncə şəhəri də cəbhə xəttindən uzaqda yerləşir. Lakin təəssüf ki, bütün dünyada KİV-lərin çoxu Ermənistanı deyil, Azərbaycanı təcavüzkar elan edir, hərçənd 30 ildən artıqdır ki, məhz Azərbaycan erməni təcavüzünün qurbanıdır. Əslində, Azərbaycan Ermənistanın təcavüzünə reaksiya verməyə məcbur idi, lakin Azərbaycan Ermənistan ərazisinə hücum etmədi. O, yalnız beynəlxalq hüquqa əsasən ona məxsus olan ərazisinin bütövlüyünü bərpa etməyə çalışırdı. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisidir". İsrailli analitik vurğulayır ki, 1990-cı illərin əvvəlində Ermənistan üçüncü dövlətin hərbi-siyasi və maliyyə dəstəyinə güvənərək, Azərbaycanın Dağlıq Qarabağ regionunu işğal edib, bu ərazidə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparıb".

Arye Qut yazır: "Ermənistanın bu təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 rayon, yəni Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib, 1 milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb".

Müəllif məqaləsinin sonunda yazır:

"Mən bilirəm ki, bütün bu illər ərzində Şuşa Azərbaycanın parlaq tarixini, onun mərd oğul və qızlarının Vətən yolunda canlarından keçməsini xatırlayaraq ağlayıb. Lakin biz ağlamırıq, çünki Azərbaycan xalqının zəif olmağa haqqı yoxdur. Öz əsgər və zabitlərinin mərdliyi sayəsində Azərbaycan yaxın günlərdə bu gözəl tarixi şəhərə qayıtdı və onu erməni işğalından azad etdi. Azərbaycan Şuşanın itirilməsi ilə heç vaxt razılaşa bilməzdi.

Azərbaycanlılar onlar üçün müqəddəs sayılan Şuşaya qayıtmalı idilər və qayıtdılar!"

# Ukrayna telekanalında ermənilərin Kəlbəcərdə törətdiyi vandalizm aktlarından danışılıb

Kəlbəcərdən çıxan ermənilər vandallıq edərək evləri, meşələri yandırır, özləri ilə götürə bilmədikləri hər şeyi məhv edirlər.

Bu fikirləri Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova bu ölkənin "Pryamoy" telekanalında müsahibəsində deyib.

Üçtərəfli razılaşmaya əsasən dekabrın 1-dək ermənilərin Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxacağını deyən səfir bildirib ki, işğaldan azad olunan ərazilərin böyük əksəriyyəti ermənilər tərəfindən məhv edilib. Bütün obyektlər, yaşayış yerləri, məktəblər, xəstəxanalar, məscidlər dağıdılıb. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan ərazilərində kilsələr dövlət tərəfindən qorunur.




Ermənistanın Azərbaycan ərazilərinə vurduğu zərərin hesablanması üçün xüsusi komissiyanın yaradıldığını deyən Elmira Axundova bildirib ki, bu ziyanın məbləği müəyyənləşdikdən sonra Ermənistanın Azərbaycana təzminat ödəməsi məsələsi müvafiq beynəlxalq qurumlar qarşısında qaldırılacaq.

Səfir, həmçinin vurğulayıb ki, işğaldan azad olunan ərazilərimizdə təhlükəsizlik və infrastruktur məsələləri həllini tapan kimi qaçqın və məcburi köçkünlər öz yaşayış yerlərinə qaytarılacaq. Azərbaycan dövləti mümkün qədər tez məcburi köçkün və qaçqınları yaşayış yerlərinə köçürəcək. Onların köçürülməsi üçün xüsusi dövlət proqramı hazırlanır.

# "Le Temps": Kəlbəcərdə onlarla ev yanır




Bu sözlər Fransanın "Le Temps" qəzetində dərc olunan məqalədə yer alıb.

Məqalədə Ermənistan hökumətinin vaxtilə şirnikdirici vədlərlə erməniləri Kəlbəcərdə qanunsuz məskunlaşdırmasından söz açılıb.

Məqalədə Kəlbəcərdə məskunlaşmış və hazırda oranı tərk edən ermənilərlə aparılan söhbətlər zamanı onların müxtəlif vədlərlə buraya gətirildiklərini bildiriblər.

Marut adlı erməni yaxınlıqda yanmış evi göstərərək, qonşusu Aleksin əvvəllər İtaliyada yaşadığını və erməni hökumətinin köməyi ilə Kəlbəcərə gəlib məskunlaşdığını deyib. Hacik adlı digər erməni isə əvvəllər Avstraliyada yaşadığını etiraf edib.

"Le Temps"ın jurnalisti Kəlbəcərdə vəziyyəti təsvir edərək, ermənilərin hər şeyi söküb apardığını, evləri yandırdığını və ağacları kəsdiyini yazıb.

Əldə edilmiş razılaşmaya görə Kəlbəcər Azərbaycana təhvil verilir. Rəsmi Bakı rayonu boşaltmaq üçün Ermənistana noyabrın 25-dək vaxt verib.

# "Yahoo Japan": "Ermənistan müharibəni niyə uduzdu?"




Yaponiyanın "Yahoo Japan" saytı "Ermənistan müharibəni niyə uduzdu?" adlı məqalə yayıb. Fransada yaşayan Saori İmari adlı yapon mənşəli yazıçı-jurnalistin müəllifi olduğu məqalədə bildirilir ki, münaqişə artıq başa çatıb. Bu münaqişə faktiki olaraq Azərbaycanın qələbəsi, Ermənistanın məğlubiyyəti ilə yekunlaşıb.

Məqalədə Qarabağın Azərbaycan ərazisi olduğu və yerli azərbaycanlıların bu torpaqlardan qovulduğu qeyd edilir. Bildirilir ki, sentyabrın 27-də başlanan döyüşlər cəmi 44 gün çəkib. Azərbaycan ona aid olan ərazilərdə nəzarəti bərpa edib.

Müəllif vurğulayır ki, bu münaqişəni bəzən xristianlarla müsəlmanların qarşıdurması kimi qələmə verənlər kökündən səhv edirlər.

Məqalədə qeyd edilir ki, Azərbaycandan fərqli olaraq Ermənistanın vahid mövqedə olmaması, üzərinə götürdüyü müttəfiqlik öhdəliklərindən sui-istifadə etməyə çalışması onun Qarabağ müharibəsində məğlubiyyətinin əsas səbəblərindən biri kimi göstərilə bilər.

# "Deutschlandfunk.de" portalı Kəlbəcərdəki evlərin ermənilər tərəfindən yandırılmasından yazıb

Almaniyanın "deutschlandfunk.de" internet portalında "Ermənilər Azərbaycana təhvil verməzdən əvvəl evlərə od vururlar" adlı məqalə dərc edilib.

Məqalədə Azərbaycan və Ermənistan arasında əldə olunan atəşkəs razılaşmasına görə Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməli olduğu bildirilir. Bu səbəbdən Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilər tərk etdikləri evləri azərbaycanlılara qalmaması üçün yandırırlar.

Məqalədə qeyd olunur ki, Rusiya vasitəçiliyi ilə əldə olunan razılaşmaya əsasən müharibə zamanı öldürülən əsgərlərin nəşlərinin mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulub və ilk mübadilə noyabrın 14-də baş tutub.


Deutschlandfunk

DIE NACHRICHTEN

Berg-Karabach

Armenier zünden vor Übergabe an Aserbaidschan ihre Häuser an

Ein Haus brennt in dem Dorf Charektar. (AFP / Alexander Nemenov )

In der Kaukasusregion Berg-Karabach haben mehrere Armenier ihre Häuser angezündet, weil sie sie nicht Aserbaidschanern überlassen wollen.

In dem Dorf Charektar standen mehrere Häuser in Flammen. Schon gestern waren hier und in der Umgebung dutzende Häuser niedergebrannt. Der

# Президент РФ: С точки зрения международного права Азербайджан возвращал территории, которые все мировое сообщество считает азербайджанскими



Самое главное, что удалось прекратить кровопролитие.
Об этом в интервью каналу Россия-24 сказал Президент России Владимир Путин. Он напомнил, что переговоры между Азербайджаном и Арменией шли вокруг принципа возвращения Азербайджану 5, а потом и 2 районов, создания коридора на территории Лачинского района Азербайджана, возвращения беженцев и признания статус-кво самого Нагорного Карабаха. **«Если бы мы смогли достичь этой договорённости, войны бы не было. Я и сейчас в этом абсолютно убежден»**, - сказал Президент РФ.
Президенту РФ был задан вопрос о том, что Турция в одностороннем порядке поддерживала Азербайджан. ***«Азербайджан – независимое, суверенное государство, и Азербайджан вправе выбирать себе союзников так, как он считает нужным. Кто же ему может в этом отказать?»***, **- сказал лидер России.**
***Он напомнил, что до сих пор никто, даже Армения не признала независимость Карабаха.***
***С точки зрения международного права Азербайджан возвращал территории, которые все мировое сообщество считает азербайджанскими. «В этой связи Азербайджан имеет право выбрать любого союзника, который оказывает ему помощь», - добавил он, напомнив, что Турция изначально была членом Минской группы ОБСЕ по карабахскому урегулированию, находилась внутри международного института и Турцию «трудно обвинить в нарушении международного права».***
По словам Президента РФ, в России помнят драматическую предысторию российско-турецких отношений на протяжении веков. При этом президент обратил внимание на тот факт, что не менее тяжелой и трагической была история многих европейских народов в отношениях друг с другом. В качестве примера он привел Францию и Германию, которые многократно воевали между собой, а сейчас в рамках НАТО вместе осуществляют свои функции по обороне и безопасности, сотрудничают в рамках ЕС. **«Они преодолели все это, перешагнули, и в интересах будущего своих народов двигаются дальше. Почему мы здесь, в регионе Черного моря, не можем делать то же самое?»** - задал вопрос В.Путин.
На вопрос «нет ли опасности в том, что в Армении к власти придут люди, которые откажутся выполнять то, что подписано», Президент РФ ответил, что это было бы самоубийством и огромной ошибкой. **«Надеюсь этого не случится», - сказал В.Путин.**

# Москва не наблюдает попыток переписать заявление по Нагорному Карабаху

С самого начала усилий, которые Россия прикладывала в интересах прекращения горячей фазы этого конфликта, мы работали в теснейшем контакте с сопредседателями Минской группы ОБСЕ.
Об этом сказал министр иностранных дел России Сергей Лавров, отвечая на вопрос о заявлении представителей США и Франции по документу, подписанному Россией, Азербайджаном и Арменией 9 ноября по Нагорному Карабаху.
«Если честно, я считаю, что подобного рода заявления либо отражают недостаточную информированность тех, кто такого рода заявления выпускает, либо просто являются результатом недоразумения», - отметил министр.
С.Лавров напомнил о телефонных разговорах президентов и глав внешнеполитических ведомств России и Франции, в ходе которых подробно обсуждалась тема Карабаха. «Наши американские коллеги также были проинформированы на уровне заместителя госсекретаря, учитывая, что Майкл Помпео уехал в зарубежное турне», - сказал он.
С.Лавров также отметил, что стороны конфликта в Нагорном Карабахе должны признать необходимость расширения присутствия международных организаций, в том числе по линии Управления Верховного комиссара ООН по делам беженцев, ЮНЕСКО и Программы развития ООН. «Потому что вопросы восстановления разрушенного стоят достаточно остро», - сказал он.
По словам главы МИД РФ, Москва не наблюдает попыток переписать или подвергнуть ревизии заявление лидеров России, Азербайджана и Армении по Нагорному Карабаху.
Как подчеркнул С.Лавров, азербайджанские и армянские беженцы из Нагорного Карабаха должны добровольно возвращаться в регион в полном соответствии с нормами международного права.

# Москва дорожит двусторонними отношениями между Россией и Турцией

Пресс-секретарь Президента РФ Дмитрий Песков заявил, что Москва дорожит двусторонними отношениями между Россией и Турцией.
Об этом официальный представитель Кремля заявил, отвечая на вопрос о призыве США и Франции разъяснить роль Турции в урегулировании нагорно-карабахского конфликта.
«Нет сомнения, что, если наши партнеры по сопредседательству в Минской группе нуждаются в разъяснениях, нет сомнения, что эти разъяснения будут представлены. Тем более, что по линии наших дипломатических ведомств сейчас по карабахским делам осуществляются регулярные контакты», - сказал Д.Песков.
Д.Песков не стал комментировать двусторонние отношения Турции с США и Францией. «У нас есть свои двусторонние отношения, коими мы дорожим. Что касается нашего совместного статуса сопредседателей, то, конечно, главное для нас - интересоваться тем, как сохранить мир, недавно установленный мир в Нагорном Карабахе, как обеспечить возвращение всех перемещенных, беженцев и так далее. И как мониторить сохранение этого мира», - добавил Д.Песков

# *То, что творят армяне в Кельбаджаре сейчас - это настоящий терроризм! - Зияд Самедзаде для Day.Az*



***В мире по-прежнему продолжают существовать кровавые конфликты, в том числе и в той географической среде, в которой мы живем. Терроризм и террористическая деятельность, входящие в число самых ужасных и бесчеловечных преступлений последних веков, занимают "особое" место в разжигании очагов конфликтов, кровавых столкновений и человеческих драм. Порой, даже в преддверии мирного завершения того или иного конфликта или кровопролитной войны, ненасытные кровью некоторые круги используют в своих целях террористов и, к сожалению, в конце концов реализуют свои коварные сценарии и планы.***
Об этом в интервью Day.Az сказал депутат Милли Меджлиса (парламента) Азербайджана, академик Зияд Самедзаде.
Депутат заметил, что когда речь заходит о мировом терроризме, на ум в первую очередь приходят именно армяне, армянские террористы и армянские террористические организации. Как говорится, терроризм стал "философией" и "образом жизни" армян и армянства. Начиная с XIX века (особенно в XX и в прошедших двадцати годах XXI века) терроризм был главным "принципом действия" армян и "главной линией" армянства.
**"Другими словами, поскольку у армян не хватает политической и военной мощи, они используют терроризм как эффективный инструмент для захвата ресурсов и территорий с целью создания единого жизненного пространства для армян, разбросанных по всему миру.**
**Ярким примером этого была жестокая расправа над азербайджанцами 31 марта 1918 года. В то время как азербайджанцы отмечали один из самых священных праздников страны Новруз Байрамы, тысячи армянских террористов совершили набег на азербайджанские города и села, убив 20 000 мирных жителей Азербайджана, разрушив 167 деревень, 35 из которых были стерты с лица земли. Неслучайно кровавые события 31 марта 1918 года вписаны в историю как День геноцида азербайджанцев мира"**, - заявил Зияд Самедзаде.
По словам академика, после обретения независимости в 1991 году оккупант и агрессор Армения поддержала терроризм на государственном уровне, выдвинув территориальные претензии к Азербайджану.
**"Ереван широко использовал террор при оккупации Нагорно-Карабахского региона Азербайджана, а также семи прилегающих районов. За последние 32 года, с начала карабахского конфликта, терроризм стал чуть ли не государственной политикой Армении. Эта страна буквально является террористическим государством номер один в мире, которое угрожает человечеству и безопасности"**, - считает он.
Как сообщил наш собеседник, около 10 000 армян из Ливана, Сирии, Ирана, России, Украины, Греции, Болгарии, Франции и США, участвовавшие в оккупации азербайджанских территорий, финансировались армянской диаспорой.
"Самый ужасный террористический акт со стороны Армении против азербайджанского народа произошел 26 февраля 1992 года в городе Ходжалы, где за одну ночь зверски были убиты 613 азербайджанцев, в том числе 106 женщин и 63 ребенка. Кроме этого 20 ноября 1991 года армяне совершили теракт вблизи села Гаракенд, трагедии Мешали, Джамиллы, Умудлу, Гарадаглы, Агдабан, Баллыгая, Баганис-Айрум. Армяне стреляли из снайперских винтовок по женщинам, детям и старикам и бросали игрушки со взрывчаткой в близлежащие реки. Среди жертв армянских терактов стали 5-летний мальчик из Агдама, 13-летняя девочка из Товуза и 2-летняя девочка из Физули", - напомнил академик.
Зияд Самедзаде напомнил, что террористическая сущность армян проявилась и во время июльских событий 2020 в Товузе, а также Отечественной войны, начавшейся 27 сентября.
"Так, один из древних поселений и центров мировой цивилизации город Гянджа подвергся четыре раза бомбардировкам со стороны армянских агрессоров. После армянского артобстрела была убита семья из пяти жителей азербайджанского села Гашалты. В результате обстрела ВС Армении из тяжелой артиллерии пяти домам в селе Гараюсифли Бардинского района был нанесен значительный ущерб. Целенаправленные обстрелы Тертерского района и центра города вражеской ракетой "Смерч". Это только некоторые доказательства террористической политики Армении", - перечислил академик.
Депутат также сказал, что несмотря на подписанный акт о капитуляции 10 ноября, армяне по-прежнему не хотят жить в мире, а также не намерены отказываться от террора.
"Преступления совершенные в последние дни в Кельбаджарском районе, являются настоящим актом экологического геноцида в отношении этого района. Не в силах смириться со своим поражением, армяне уничтожают леса, сжигают дома и совершают разного рода зверства. Однако их деяния близятся к завершению. Одержав победу в Отечественной войне всего за 44 дня, Азербайджан положил конец 32-летнему конфликту, поэтому конец армянскому терроризму очень близок. Армянским террористам придется в короткие сроки ответить за свою террористическую деятельность. Мы победим армянский терроризм, который угрожает Азербайджану, этому региону и миру в целом - благодаря нашей решимости, терпению и воле", - заключил Зияд Самедзаде.

*Абдул Керимханов*

# Yeni reallıqlar: cəbhədə məğlub olan Ermənistanı ciddi iqtisadi tənəzzül gözləyir...

Hazırda dünyanın təşvişinə səbəb olan qlobal problemlər silsiləsində ön sırada koronavirus pandemiyasının dayandığı bir dövrü yaşamaqdayıq. Bu qlobal problem az imiş kimi özlərinin riyakarlığı və vandallığı səbəbindən hazırda və gələcəkdə özlərinə tənəzzüldən başqa vəziyyət bəxş etmək iqtidarında olmayan ermənilər və Ermənistan hökumətinin uğradığı məğlubiyyət heç də səbəbsiz deyildir. Zaman-zaman çoxsaylı riyakarlıqlar, vandalizm aktları ermənilərin terrorçu millət kimi formalaşmasına səbəb olmuşdur. Ən təhlükəli cəhət həm də ondadır ki, bu proses qlobal səciyyə daşıyaraq, bütün bəşəriyyəti təhdid altına almışdır. Daha geniş mənada hələ 100 illər öncə əsası qoyulan erməni terroru bəşəriyyətin bütün qlobal problemlərini üstələməkdədir. Dünyada işğalçı dövlət kimi tanınmış Ermənistan hökumətinin rəsmilərinin qeyri-əsassız səsləndirdikləri "çiçəklənmə" vədləri son aylar tükənməkdədir. Şanlı ordumuzun 1,5 aylıq zəfər yürüşü nəticəsində alt-üst olan erməni ideologiyası bitməkdədir. Ermənistan iqtisadiyyatına dair pafoslu çıxışlar artıq aclıq və səfalətə düçar olmuş xalqın alovlu nitqləri ilə əvəzlənməkdədir.



Real vəziyyət göstərir ki, Ermənistan iqtisadiyyatının tənəzzülü davam etməkdədir. Ermənistan Statistika Komitəsinin rəsmi açıqlamasına əsasən cari ilin birinci yarısında ölkənin ümumdaxili məhsulunun həcmi 7,1 faiz azalmışdır. 2020-ci ilin yanvar-oktyabr ayları ərzində Ermənistan iqtisadiyyatında 7,0 faizlik azalma qeydə alınmışdır. Analoji dövr ərzində tikinti sektoru 21,0%, ticarət 12,7%, xidmətlər 12,0% azalmışdır. Yuxarıda qeyd edilən rəqəmlər Ermənistan iqtisadiyyatını gözləyən ən böyük fəlakətin hələ qarşıda olduğunu proqnozlaşdırmağa imkan verir. Cari ilin sentyabr ayının 27-də atəşkəsi pozaraq Azərbaycana təcavüz edən Ermənistanın itirdiyi hərbi texnika və sursatın dəyəri ilkin hesablamalara görə 2,5 mlrd. ABŞ dollarına yaxındır. Amma bu ölkənin itirdiyi təkcə hərbi texnika və döyüş sursatı ilə bitmir. Ermənistan statistikasının məlumatına görə, 2019-cu ildə ölkə ÜDM-i 6569 mlrd. dram və ya təxminən 13,7 mlrd. ABŞ dolları olmuşdur. Nəzərə alsaq ki, ÜDM-in 30,4 faizi və ya 1998,7 mlrd. dramı (4,2 mlrd. ABŞ dolları) 4-cü rübün payına düşür onda oktyabr-dekabr ayları Ermənistanın sosial-iqtisadi tənəzzülünün astanası hesab edilə bilər. İlkin hesablamalara görə, 2020-ci ilin 4-cü rübü ərzində bu ölkədə gündəlik ÜDM 12,0 mln. ABŞ dolları və ya rüb ərzində 1,2 mlrd. ABŞ dolları dəyərində azala bilər. Ölkə iqtisadiyyatının acınacaqlı vəziyyəti daha çox tikinti sektorunda hiss edilməkdədir. 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə yanvar-iyun aylarında bu sahədə 54,5 faiz azalma qeydə alınmışdır. İlin sonunadək iqtisadiyyatda daha 20 faiz azalmanın müşahidə ediləcəyi, ölkənin xarici borcunun 5-6 dəfə artacağı gözlənilir.

Korrupsiyaya uğramış Ermənistana xarici sərmayənin qoyulması da problem kimi qiymətləndirilir. Məhz bu səbəbdən də ölkəyə birbaşa sərmayə qoyuluşu güclü şəkildə azalaraq, öz növbəsində iqtisadi tənəzzülü dərinləşdirəcəkdir. Yalanlar üzərində qurulmuş Ermənistanın növbəti aylarda daha ciddi iqtisadi çətinliklərlə üzləşəcəyi qaçılmazdır.

Görünən odur ki, əməktutumlu sektorların fəaliyyəti xeyli məhdudlaşmış, bir çox yerli sahibkar istehsal fəaliyyətini dayandırmış, mikro-sahibkarlar biznesdən uzaqlaşmış, kiçik və orta iş adamları isə işçilərin əksəriyyətinin səfərbər olması səbəbindən işçi qüvvəsinin çatışmazlığı və məhsuldarlığın kəskin azalması ilə üzləşmişlər. Cari ilin avqust ayında iqtisadi fəaliyyətdə ilin əvvəlində qeydə alınan göstəricilərlə müqayisədə (Ermənistan Statistika Komitəsinin rəsmi açıqlamasına uyğun olaraq) 17,4% azalma baş vermişdir ki, bu da ölkə iqtisadiyyatına ağır zərbə endirmişdir. Ermənistanın Maliyyə Nazirliyinin verdiyi məlumata görə isə bu il dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozlar yerinə yetirilməyəcəkdir.

Qeyd etmək lazımdır ki, dinc dövrdə əhalisinin dörddə biri yoxsulluqdan əziyyət çəkən Ermənistanın müharibə zamanı vətəndaşlarının maddi vəziyyətinin pisləşməsi (sosial ayırmaların və əmək haqlarının vaxtında ödənilməməsindən) tələbin azalması problemini də ortaya çıxarır ki, bu da eyni zamanda biznes sektorunun çökməsi üçün "stimul" olacaqdır. Ölkənin böyük miqyaslı hərbi itkiləri və məğlubiyyəti əlavə resurs tələb etdiyindən onsuz da yoxsul olan Ermənistan vətəndaşlarının rifahını daha da pisləşdirməkdədir. Rasionallığını itirmiş və düşünülməmiş addımlara əl atan Ermənistan və onun siyasi rəhbərliyi (P.S. İkinci Vətən müharibəsi zamanı Ermənistanın müasir hərb elmindən nə qədər uzaq olduğuna əsaslanaraq hərbi rəhbərlik terminindən istifadə etmirik) bundan sonra daha acınacaqlı vəziyyətlə üzləşəcəklərini dərk etmirlər. Ermənistanın son rəsmi statistikasına görə, ölkə üzrə bağlanan pərakəndə satış müəssisələrinin sayı 1334, fəaliyyətini müvəqqəti olaraq dayandıranların sayı isə 5614-dür. Qeyd edək ki, bu göstərici ölkədə fəaliyyət göstərən bütün pərakəndə satış obyektlərinin təxminən 60%-ni təşkil edir. İnşaat sektoruna gəldikə isə, müəssisələrin 26-sı ləğv edilmiş, 256-sı isə fəaliyyətini dayandırmışdır. Bütün bunlar miqrasiya səviyyəsi yüksək olan bir ölkədə iqtisadi vəziyyətin pisləşməsi səbəbindən əmək resurslarının xaricə axınını artıracaq və sosial problemlərə tab gətirə bilməyən yerli sakinlərin dövlətə qarşı çıxışlarını daha da intensivləşdirəcəkdir. Artıq bəzi müəssisələr dövlətdən təzminat tələb etməyə başlamışlar.



Xüsusilə, kənd təsərrüfatı sektorunda ərzaq tədarükü və eyni zamanda, tələb azalmışdır ki, bu da məhsulların qiymətinin kəskin artmasına səbəb olacaqdır. Nəzərə alsaq ki, Ermənistan onsuz da ərzaq məhsullarının böyük hissəsini idxal edir, bu səbəbdən ölkədə ərzaq böhranının baş verməsi labüddür.

Son aylar Ermənistanın sosial və iqtisadi problemlərinə hərbi məğlubiyyət də əlavə olundu. Ölkə yenə "ənənələrinə sadiq qalaraq" xarici borclar, ianələr və yardımlara ümid edir.

Ermənistan 2020-ci illə yanaşı, 2021-ci ildə də ciddi iqtisadi çətinliklərlə üzləşəcəkdir ki, bu da Ermənistanda əhalinin daha sürətlə yoxsullaşmasına və dövlətin iflasına səbəb olacaqdır.

**Asif Həsənov,**
**iqtisad üzrə fəlsəfə doktoru**

# Ermənistanın hərbi-siyasi rəhbərliyinin öz xalqına "sırıdığı" yalanların ömrü 44 gün oldu



Sentyabrın 27-dən başlayan və 44 gün davam edən hərbi əməliyyatlar dövründə Ermənistan döyüş meydanı ilə yanaşı, informasiya məkanında da darmadağın edildi. İlk gündən yalan, həqiqəti əks etdirməyən informasiyalar yayan Ermənistan tərəfi bütün imkanlardan istifadə edərək acınacaqlı durumlarını erməni xalqından gizlətməyə çalışdı. Düşünmürdülər ki, bütün bu yalanlarının ömrü uzun olmayacaq.

Hərbi əməliyyatların ilk günündən başlayaraq baş nazir Nikol Paşinyandan Ermənistan Müdafiə Nazirliyinin təmsilçiləri Şuşan Stepanyana, Artsrun Ovannisyana və başqalarına qədər hamı hər gün yalan danışdı. Yaradılmış informasiya vakuumunda bu, müvəqqəti effekt versə də, son nəticədə hər şeyin üstü açıldı.

Azərbaycan Ordusu ard-arda torpaqlarımızı işğaldan azad etdikcə, Artsrun Ovannisyan və Şuşan Stepanyan sosial şəbəkələrdə saxta kadrlar, video görüntülər yayaraq uğursuzluqlarını ört-basdır etməyə çalışırdı. Həmçinin A.Ovannisyan keçirdiyi mətbuat konfranslarında da bir qayda olaraq erməni xalqına uydurma nağıllar danışmaqla məşğul idi.

Aram Qabrielyanovun təsiri altında olan Semen Peqovun "Wargonzo" layihəsi vasitəsilə hazırlanan saxta kadrları yayan, sosial şəbəkələrdə özlərini "qalib" kimi təqdim edən Ovannisyan indi öz yalanlarının güdazına getdi. Erməni qoşunlarının geri çəkilməsini guya Azərbaycan Ordusunun itkilər verərək geri çəkilməyə məcbur edildiyi kimi təqdim edən Şuşan Stepanyan Şuşanın azadlığına qovuşduğu günədək hayasızcasına hələ də Hadruta guya ermənilərin nəzarət etdiyini söyləməkdə davam edirdi. Bu faktlar düşmənin illərdir yürütdüyü siyasətdə daxil olmaqla, bütün fəaliyyətinin yalanlar üzərində qurulduğunun isbatıdır.

Ermənistan tərəfindən döyüş əməliyyatlarının coğrafiyası və nəticələri barədə uydurmalar o həddə çatdı ki, müstəqil informasiya kanallarına, sosial şəbəkələrə müharibə bəhanəsi ilə çıxışı qapadılmış sadə ermənilər hətta Ermənistan ordusunun Bakıya çatdığını zənn etməyə başladılar. Müharibənin ilk günlərindən bütün cəbhəboyu geriləyən Ermənistan ordusu bəzi ermənilərin uydurmalarına görə, artıq Azərbaycanın digər tarixi torpaqlarını işğal etmək üçün döyüşür kimi qələmə verilirdi. Baqramyan-26 teleqram kanalı, Semen Peqovun "Wargonzo" layihəsi vasitəsilə döyüşlərin son gününə qədər açıq-aşkar saxtakarlıqla məşğul olan düşmən noyabrın 10-da döyüş meydanında olduğu kimi, informasiya məkanında da ağ bayraq qaldırmağa məcbur edildi.

Xüsusilə qeyd etmək lazımdır ki, Ermənistanda sosial media hərbi əməliyyatların ilk günündən ciddi nəzarətə götürüldü, hakimiyyətin yarıtmaz siyasətinə qarşı mübarizə aparanların, həqiqətləri yazanların hamısı təqib və həbs edildi, bütün müxalif saytlar bağlandı, müstəqil səslər boğuldu. Beləcə bütün dayaqlarını itirən Paşinyan xalqın olan qalan etimadından da məhrum oldu. Artıq Ermənistanda heç kim onun boş vədlərinə inanmır.

Hərbi əməliyyatların düşmən ordusunun məğlubiyyəti ilə yekunlaşması həm də Ermənistan hərbi-siyasi rəhbərliyinin yalanlarının aşkara çıxması ilə nəticələndi. Bu gün Yerevan küçələrində, ölkənin parlamentində baş verələr həm də bu yalanların nəticələri kimi qiymətləndirilməlidir.

# Türkiyə Azərbaycana hərbi qüvvələr göndərir



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana hərbi qüvvələrin göndərilməsi haqqında qanun imzalayıb.

Bu barədə qərarı "Rəsmi Qəzet" dərc edib.

Qərarın giriş hissəsində qeyd olunub ki, Türkiyənin Azərbaycana hərbi qüvvə göndərməsi iki ölkə arasında 16 avqust 2010 tarixində imzalanan "Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"yə uyğun olaraq həyata keçirilir.

Qərarda vurğulanıb ki, dost və qardaş ölkə Azərbaycanın işğal altındakı ərazilərini azadetmə mücadiləsi illərdir davam edir: "Azərbaycanın özünümüdafiə hüququndan istifadə edərək sentyabrın 27-də başlatdığı əks-hücum əməliyyatları nəticəsində işğal altındakı ərazilərinin azad edilməsi istiqamətində önəmli uğurlar qazanıb".

Qərara əsasən, Türkiyə hərbçiləri 1 il müddətinə Dağlıq Qarabağdakı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzində fəaliyyət göstərəcəklər.

# Zəngilanda Şərq çinarları əkilib



İşğaldan azad olunmuş Zəngilan rayonunun ərazisində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, rayonda xidməti vəzifələrinin icrasına başlayan Daxili İşlər, Müdafiə Nazirlikləri və Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının iştirakı ilə Şərq çinarları əkilib.

Bu barədə nazirliyin mətbuat katibi İradə İbrahimova məlumat verib.

O bildirib ki, payız ağac əkini mövsümündə Azərbaycanın bütün bölgələrində olduğu kimi işğaldan azad olunmuş ərazilərimizdə də müxtəlif cinsli ağaclar, əsasən də Şərq çinarları əkilir: "Ötən həftə Füzuli rayonunun işğaldan azad olunmuş Qarğabazar kəndinin ərazisində də Şərq çinarları əkilib və palıd toxumları səpilib".

# BMT G20 liderlərindən pandemiya ilə mübarizəyə vəsait ayırmalarını xahiş edib



ABŞ-ın baş katibi Antoniu Quterreş G20 ölkələrinin liderlərindən koronavirusla mübarizəyə 28 milyard dollar ayırmalarını xahiş edib.
Bu barədə baş katibin G20 liderlərinə ünvanlandığı məktubda deyilir.
"G20-dən Covid-19 ilə mübarizə aparmaq məqsədi ilə 28 milyard dollar ayırmasını xahiş edirəm və tibbi məhsulların istehsalını genişləndirməyə çağırıram", – mesajda deyilir.
"Biz həm də bu sahədə millətçiliyin hər hansı bir təzahürünə (ölkələrin başqalarının ziyanına ilk növbədə özlərini peyvəndlə təmin etmək istəyi) qarşı durmalıyıq", – Antoniu Quterreş vurğulayır.

# "S&P" Azərbaycanın bank sektorunun risklərini qiymətləndirib




Bu ilin sentyabr ayının sonlarında Qarabağ münaqişənin eskalasiyası Azərbaycanın maliyyə göstəriciləri, xarici balans və makro-maliyyə sabitliyi üçün riskləri artırıb.
Bu barədə **"S&P Global Ratings"** agentliyinin açıqlamasında deyilir.
"S&P" mütəxəssisləri bildirir ki, aşağı neft qiymətləri Azərbaycanın iqtisadi inkişaf perspektivlərini daha da çətinləşdirir və bu da, öz növbəsində, potensial valyuta ucuzlaşmasına qarşı yüksək həssaslıqla birlikdə bank sektorunda aktivlərin keyfiyyətinə təzyiqi artırır.
Açıqlamada deyilir ki, bəzi banklar öz xərclərini çətinliklə ödəyəcək və bu ili çətinliklə itkisiz başa vuracaq. Səbəb olaraq, problemli kreditlərin 2020-ci ildə ikiqat artacağı və gəlirliliyin azalacağı göstərilir.
Bu il kreditləşmədə artım gözləməyən agentlik, gələn il bu göstəricinin 8% artacağını proqnozlaşdırır. Ötən il artım 14,9% təşkil edib.
**"Bu il Azərbaycanda banklar tərəfindən yeni kreditlərin verilməsinin yavaşlayacağını gözləyirik. Bundan başqa, kreditlərin dəyərinin ortalama kredit portfelinə nisbəti 2015-2019 illərdə qeydə alınan 3,2%-dən 4%-dək artacaq"**, – agentliyin açıqlamasında deyilir.
Agentlik 2020-ci ildə Azərbaycanda problemli kreditlərin ümumi portfeldə payının ötənilki 8,3%-dən 14,8%-dək, 2021-ci ildə isə 12,3%-dək azalacağını ehtimal edir. Lakin agentlik onu da bildirir ki, problemli kreditlərin həcminin artmasının pik nöqtəsi və aktivlərin böyük hissəsinin keyfiyyətinin pisləşməsi 2021-ci ildə dayana bilər.
"S&P"yə görə, manatın məzənnəsi volatil olan makroiqtisadi mühitdə təzyiq altında qalır və paritet qaydalarına uyğun olmayan düzəlişlər makroiqtisadi mühitin sabitliyini poza və bank sektorunda kredit risklərini artıra bilər: "Lakin biz başa düşürük ki, indiyədək yerli rezident əmanətləri yuxarı məzənnə ilə xarici valyutaya konvertasiya edilməyib və bank sistemindən birbaşa əsaslı depozit axını olmayıb".

# "Şahdağ Xeyriyyə Cəmiyyəti" İB QHT Şurasının qrantı hesabına layihə icrasını yekunlaşdırdı

"Şahdağ Xeyriyyə Cəmiyyəti" İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və 15 iyul 2020-ci il tarixindən "Qadınlar üçün "İnnovativ sahibkarlığın əsasları" adlı onlayn təlim" adlı layihənin icrasına başlamışdır.
Layihə icra planına uyğun olaraq onlayn formatda ZOOM proqramı əsasında həyata keçirilmişdir. Onlayn tədbirdə 35 nəfər iştirak etmişdir. 4 ay davam edən layihənin icrası tamamlanmışdır.

# "Peşəyönümlü Təhsilin İnkişafına Yardım" İB QHT Şurasının qrantı hesabına layihə icrasını davam etdirir

Peşəyönümlü Təhsilin İnkişafına Yardım" İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və **"Gələcək müəllimlərin məktəbdə peşəyönümü işinin təşkilinə hazırlanması üzrə maarifləndirici onlayn tədbirlərin təşkili"** adlı layihənin icrasına başlamışdır. Layihənin icra planına uyğun olaraq son mərhələdə ADPU-nun tələbələri ilə ZOOM proqramı üzərindən onlayn formatda gələcək müəllimlərin məktəbdə peşəyönümü işinin təşkilinə hazırlanması üzrə maarifləndirici tədbir təşkil etmişdir. Tədbir iştirakçıların ciddi marağına səbəb olmuşdur.

# "Azərbaycan İqtisadçılar İttifaqı" İB QHT Şurasının dəstəyi ilə layihə icrasını davam etdirir

"Azərbaycan İqtisadçılar İttifaqı" İB Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2020-ci ilin 1-ci qrant müsabiqəsində qalib gəlmiş və "Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin peşə liseylərində onlayn təşviqi tədbirləri" adlı layihənin icrasına başlamışdır.
Layihənin icra planına uyğun olaraq son mərhələdə peşə liseyi pedaqoji heyəti və ADPU tələbələrinin iştirakı ilə peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsinin ZOOM proqramı üzərindən onlayn təşviqi üzrə tədbir keçirilmişdir. Tədbir iştirakçıların ciddi marağına səbəb olmuşdur.

# PAŞA Bank Şuşada regional filialın açılacağını elan etdi




Azərbaycanın aparıcı korporativ bankı PAŞA Bank erməni işğalından azad edilmiş Şuşa şəhərində Bankın yeni filialını açmağa hazır olduğunu açıqladı. Müvafiq qərar PAŞA Bankın 2021-2023 dövrü üçün yeni İnkişaf Strategiyasında əksini tapacaqdır.
PAŞA Bankın İdarə Heyətinin sədri Taleh Kazımovun sözlərinə görə, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ölkəmizin müasir tarixində dönüş nöqtəsidir. Bu, dövlət başçısının güclü siyasi iradəsi, Azərbaycan xalqının birliyi və ölkə Prezidentinə inamı sayəsində mümkün olmuşdur.
"Ölkəmizin hər bir vətəndaşı, hər bir vətənpərvər azərbaycanlı dövlət bayrağımızın azad edilmiş torpaqlarda yenidən dalğalanmasını bu illər ərzində səbirsizliklə gözləyirdi və bu sevincli an gəldi çatdı. Hər birimizi bu böyük qələbə münasibətilə təbrik edirəm!", – T. Kazımov dedi. "İşğaldan azad edilmiş ərazilər kənd təsərrüfatı, qiymətli metalların hasilatı, nəqliyyat və logistika, turizm və otelçilik, İT və iqtisadiyyatın real sektorunun bir çox digər seqmentləri üzrə fəaliyyət sahələrində misilsiz iqtisadi potensiala malikdir. Şuşada PAŞA Bankın filialını açmaqla biz bütün təcrübə və biliklərimizi tətbiq etməklə dövlətin azad edilmiş ərazilərə yönəlmiş bütün təşəbbüslərinin və reinteqrasiyanın həyata keçirilməsinə, eləcə də sahibkarlığın inkişafına və həm ölkədaxili, həm də xaricdəki tərəfdaşlarla əlaqələrin qurulmasında dəstək verməyə hazırıq", - deyə İdarə Heyətinin sədri vurğuladı.

# Pensilvaniya Ali Məhkəməsi Trampın iddiasını rədd etdi



Pensilvaniya Ali Məhkəməsi ABŞ prezidenti Donald Trampın Filadelfiyada müşahidəçilərin səslərin hesablanmasına nəzarət etmək imkanlarının məhdudlaşdırdığını iddia edən müraciətini rədd edib.
Xatırladaq ki, bundan əvvəl respublikaçıları vaxtından gec gələn minlərlə bülleteni etibarsız olduğunu təsdiq etməsini tələb etmişdilər. Tramp və onun vəkili Rudi Culiani Filadelfiya və Pittsburqda təxminən 600 min səsi etibarsız hesab edərək, bununla bağlı Apelyasiya Məhkəməsinə müraciət etmişdilər.
ABŞ prezident seçkiləri 3 noyabr tarixində keçirilib. Əldə olan məlumatlara görə, Amerika KİV-i seçkilərdə Demokratlar Partiyasının namizədi Co Baydenin qalib gəlməsi barədə yazıb. Qeyd edək ki, bir çox ölkə prezidentləri Co Baydeni bu münasibətlə artıq təbrik edib.
Buna baxmayaraq, ABŞ-ın hazırkı prezidenti Donald Tramp qələbəsi uğrunda məhkəmədə mübarizə aparacağını söyləyib.

# Moody's: Gələn il MDB ölkələrində büdcə təzyiqləri artacaq




Orta və Şərqi Avropada (CEE) kredit əsaslarında uzunmüddətli möhkəmlənmə və dövri iqtisadi dirçəliş gələn il dövlət borcunda mülayim bir azalmaya səbəb olacaq. Ancaq, böhran Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin əvvəlki maliyyə qazanclarını böyük ölçüdə tükəndirib və sosial gərginliklər gələn il üçün büdcə təzyiqlərini gücləndirəcək.
Bu barədə beynəlxalq kredit reytinq agentliyi "Moody's"in hesabatında deyilir.
Məlumatda, həmçinin, deyilir ki, hazırda, daha güclü fiskal və xarici buferlər Rusiyanı (Baa3, stabil) böhrandan təcrid edir. CEE ölkələrindən Bolqarıstan (Baa1 sabit) və Xorvatiyanın (Ba2 müsbət) son zamanlar avrozonaya qoşulmaq üçün atdığı addımlar xarici təzyiqləri azaldacaq.
MDB məkanında Rusiyaya qarşı yeni sanksiyalar təhdidi, Belarusda siyasi qeyri-sabitliyin artması (B3, stabil) və Ermənistan (Ba3, stabil) ilə Azərbaycan (Ba2, sabit) arasındakı hərbi gərginlik daha çox iqtisadi və maliyyə təzyiqlərini artırma riski daşıyır. Koronavirus pandemiyasının yaratdığı iqtisadi şok və neft qiymətlərinin azalması MDB miqyasında 2 dəfə artan kredit dəyərsizləşməsi daha da artacaq. Təsir müxtəlif olacaq, yalnız Rusiya banklarının kredit portfeli daha dayanıqlıdır. Bankların güclü kapital rezervləri aktivlərin keyfiyyətinin pisləşməsini azaldacaq.
Hesabatda bildirilir ki, Rusiya Bankı (Mərkəzi Bank) iqtisadi azalmanın qarşısını almaq üçün geniş pul-kredit siyasətinin yumşaldılmasını təmin edəcək və faiz dərəcələrini uzun müddət aşağı səviyyədə saxlayacaq.
Məhdudiyyətlər və sosial məsafə, MDB-də rəqəmsal bankçılıq və nağdsız ödəniş xidmətlərinin inkişafına təkan verəcək. Daha çox bank əməliyyatları ödəniş və komissiya gəlirlərini dəstəkləyəcək və mobil kanallara keçmək bankların əməliyyat səmərəliliyini artıracaq. Rəqabət mənzərəsi də dəyişəcək, inovasiyalar inkişaf edəcək və onları tətbiq edə biləcək bankların inkişaf etmə ehtimalı daha yüksəkdir.
Əmtəə bazarındakı azalma və ya ABŞ/Aİ-nın yeni sanksiyaları, iqtisadiyyatın bu ixracatdan asılılığını nəzərə alaraq kövrək inkişafa zərər verə bilər. İqtisadiyyat, nisbətən aşağı xidmət sektoru riski, yüksək sənaye konsentrasiyası və mərhələli pul-kredit siyasətinin yumşaldılması ilə dəstəklənməyə davam edir.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Eldar Nuriyevə həyat yoldaşı
**KƏMALƏ XANIM RAMAZAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xəzər" Səhmdar Cəmiyyətinin sədri Qüdrət Kərimov Eldar Nuriyevə həyat yoldaşı
**KƏMALƏ XANIM RAMAZAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Eldar Nuriyevə həyat yoldaşı **KƏMALƏ XANIM RAMAZAN QIZININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**